DOI: 10.36719/AEM/2007-2020/54/161-164

**Fidan Nazim qızı Məmmədova**
Azərbaycan Dövlət Rəssamlıq Akademiyası
Fine.art21@mail.ru

# XX ƏSRİN 60-70-Cİ İLLƏRİNDƏ AZƏRBAYCAN TƏSVİRİ SƏNƏTİNDƏ RƏNGKARLIQ NÜMUNƏLƏRİNƏ XAS OLAN QADIN OBRAZLARININ BƏDİİ XÜSUSİYYƏTLƏRİ

***Açar sözlər**: qadın obrazı,portret,V.Səmədova, D.Kazimov, T.Salahov*
***Key words**: female image, portreit, V.Samadova, D.Kazimov, T.Salakhov*
***Ключевые слова**: образ женщины, портрет, В.Самедова, Д. Казымов, Т.Салахов*

Uşaqlıqda çoxları özlərini sənətkar kimi təqdim edirlər. Dünyanı gördüyümüz kimi təsvir etmək üçün bir dəfə hamımız qələm və ya fırça götürməkdən zövq aldıq, lakin uşaqlar böyüyür və onlardan yalnız bir neçəsi üçün bu sevimli əyləncə peşəyə çevrilir. Azərbaycanda istər vətənimiz, istərsə də xaricdə tanınan bir çox istedadlı sənətkar var. Qürur hissi budur ki, görkəmli sənətkarlarımız arasında çox sayda qadın var. V.İ.Surikov adına Moskva Rəssamlıq İnstitutunda diplom işi olaraq işlədiyi "Azərbaycan bəstəkarları" (1951) tablosu ilə mürəkkəb kompozisiya qurmaq bacarığını və kolorit ustası olduğunu sərgiləyən Vəcihə Səmədova (1924-1965) bundan sonra çox da uzun çəkməyəcək yaradıcılığında bir-birindən maraqlı əsərlər ərsəyə gətirmişdir. Fırça ustası tərəfindən gözəl qadın portret obrazları yaradılmışdır. Xarakterin ifadəliyi, cazibəliyin tamligi, milli xüsusiyyətlər rəssamın bir çox portretlərində var. İnsan hisslərini dərindən açmaq arzusu onun bütün portretləri üçün səciyyəvidir.

Geoloq Minurə Məmmədbəylinin portreti (1960) olduqca bədii təsir qüvvəsinə malikdir. Belə ki, burada rəssam son dərəcədə uğurlu kompozisiya həllinə nail olub. Geoloq dəniz gəzintisi zamanı sanki üzünü tamaşaçıya qəfil çevirdiyi anda təsvir edilib. Obrazın gözlənilməz gərgin pozası və səmimi hərəkəti əsərin kolorit həlli – qırmızı, çəhrayı, bənövşəyi, qızılı və gümüşü rəng keçidlərinin əlaqələndirilməsindən məharətlə istifadə edib.



Vəciyə Səmədova – tələbə və mühəndis qızların, aktrisaların, mehriban anaların xoş və nikbin obrazlarını fırçaya alar, gözəlliyi, səadəti, məhəbbəti şöhrətləndirərdi. Rəssamın əsərlərinin təhlili göstərir ki, o qadını ancaq ana, bacı və ya qadın kimi təsvir etmir, qadın şəxsiyyətinin xüsusi dəyərdə olduğunu qabardır, isdedadlı və özünə hər baxımdan əmin qadınları təsvir edir.

Vəciyə Səmədovanın fırçaları Azərbaycanın təbiətini əks etdirən bir çox rəsm əsərlərinə aiddir, lakin ona ən yaxın qadın obrazını canlandırmaq idi. 1964-cü ildə rəssam Bakıda sərgidə Xəzər sahillərində balıqçıların geri qayıtmasını gözləyən qadınlar haqqında "Xəbərləri gözləyirəm" rəsmini təqdim etdi. Bu onun son işi idi - gözəl və faciəli: insanlar, talelər, torpaq və dəniz haqqında, həyat haqqında.

1960-1970-ci illərdə respublikanın coşğun və zəngin həyatı ilə incəsənətin əlaqəsi genişlənir, rəssamlar müasirliyin aparıcı magistral mövzularına, əsl novatorluğa, bədii forma və zənginliyinə və təzəliyinə maraq göstərir, milli özünəməxsusluğu ilə fərqlənən dolğun Azərbaycan rəngkarlıq məktəbinin böyük nailiyyətləri və artan yaradıcılıq imkanları sərgilərdə parlaq şəkildə nümayiş etdirilmişdir.

Azərbaycan təsviri sənətinin yüksəliş dövrü adlandırılan 1960-70-ci illərdə təsviri sənətimizdə uğurlu tabloların yaranması danılmazdır. Bu illər ərzində rəssamlarımızın müraciət etdiyi mövzular nə qədər ənənəvi olsa da, onlara müəllif münasibətləri bir-birindən fərqli olmuşdur. Bunun sayəsində əsasən inqilabi-tarixi mövzuların, fəhlə, kolxozçu, və neftçi obrazlarını ğözündə yaşadan müxtəlif əsərlər yaradılmışdır. 1947-ci ildən respublika və ümumittifaq sərgilərinin iştirakçısı olan və sənətin sirlərini ilk olaraq Azərbaycanın xalq rəssamı Kamil Xanlarovun rəssamlıq dərnəyində alan Davud Kazımov yaradıcılığında əsasən bunlara bənzər mövzular yer almasını da təbii saymaq olar.



Rəssamın yaradıcılığında əmək mövzusu əsas yerlərdən birini tutur. Onun Sağıçılar (1961), Çayçı Elmira (1969), Rəfiqələr və s. tabloları bu qəbildəndir. Rəssamın qadın fədakarlığını, çalışqanlığının bədii təcəssümünü Sağıçılar tablosunda müşahidə etmək olar. Müəllif gözəllik və əməksevərliyi, öz işinə qarşı olan məhəbbət hissini bu sağıcı qadınların surətlərində ifadə etməklə, bütünlükdə sosialist əməyinin şeriyyətinin duyğulandırıcı tərənnümünə nail olmuşdur. Bu əsər diqqətçəkən süjet xəttinə, obrazlı təfəkkürə və gözəl əhval-ruhiyyəyə əsaslanır. Davud Kazımovun məhsuldarlığı ilə seçilən yaradıcılığında portretlər geniş yer tutur. Onun bütünlükdə real bədii şərhin milli qaynaqlardan gəlmə bədii prinsiplərlə qovşağından yaranan ifadə vasitələri təsvirə aldığı şəxsiyyətləri obraz səviyyəsinə qaldırmağa imkan vermişdir. Portretləri süjetli tabloları kimi mürəkkəb planda qurmağa meyl göstərən rəssam, təsvir etdiyi şəxslərin mənəvi aləmini peşə əlamətləri ilə vəhdətdə canlandırmağa çalışmışdır. Sənətkarın ana obrazına müraciət etməsi heç də təsadüfi deyildir. Müəllif, ana obrazını yaratmaqla Azərbaycan qadınının yüksək məziyyətlərini öz tablosunda əlvan boyalarla əks etdirməyə çalışmışdır. Çünki dünyagörmüş ağbirçəkləri bədiiləşdirmək rəssamlığın ənənəvi motivlərindəndir. Bu mənada yağlı boya ilə çəkdiyi birinci “Ana” əsərin (1968) adını çəkmək zəruridir. Bu əsərdə qadın obrazını qəhrəmanı abşeronlu anayadır. Bağ evinin hasarına söykənən ananın tamaşaçıya tuşlanmış açıq baxışlarında həyat sevgisi duyulur. Ananın sadə geyimi onun fədakar, zəhmətkeş olduğundan xəbər verir. Dövrün tələbi ilə ayaqlaşma müasirləri kimi sənətkarında yaradıcılığından yan keçməmişdir. Əmək cəbhəsində fədakarlıq göstərən insanların fəaliyyəti və obrazları, sovet adamlarının mənəvi gözəlliyi və s. mövzuları əks etdirən bu əsərlərin leytmotivini müasirlik təşkil edirdi. Bu mənada sənətkarın yaradıcılığında əmək adamlarına, əməkdə fərqlənən insanlara həsr olunmuş portretlərə də xüsusi yer verilmişdir. Onun bu mövzuda yaratdığı Kolxozçü qadın, Qabaqcil çayçı Gülnaz Əzimova (1965), Çayçı Elmiranını portreti təkfiqurlu və çoxfiqurlu portretləri əsl zəhmət adamlarının portretləridir. Dövrün tələbi ilə yaradılsa da, tablolarda rəng çalarları, insanların üçündəki fərəh hissi rəssam tərəfindən böyük ustalıqla yaradılmışdır. Kompozisiyanın qəhrəmanları fəal və işgüzar, həyata məhəbbətlə



baxan adamlardır. Rəssam duyğuları ilə səsləşən parlaq və nikbin boyalara əl atır, əsərlərinin koloritini dekorativ və işıqlı rənglərin əlaqəsi ilə əldə edir.

50-ci illərin sonu, 60-cı illərin əvvəllərində "Sərt üslub" adlandırılan istiqamətin nümayəndələri formaca monumental, lakonik, gündəlik həyat reallığını əks etdirən əsərlər yaratmışlar. Bu üslubun liderlərindən biri SRİ Rəssamlıq Akademiyasının həqiqi üzvü, xalq rəssamı Tahir Salahov idi. Rəssam yaradıcılığı milli ənənələrlə müasir dünya incəsənətinin ən mütərəqqi dəyərlərinin birləşdirilməsinə gözəl nümunədir. Onun yaradıcılığında romantizmlə realizmin sıx vəhdəti duyulur. Göy qurşağı səmada necə əlvan, necə rəngarəngdirsə, rəssamın da sənət yolunda qoyduğu izlər o qədər gözəldir. T.Salahovun yaratdığı istər portretlərdə, tematik tablolarda, istərsə də səhnə dekorasiyalarında sərt dinamika, daxili fərdi özünəməxsusluq var. Sənətkarın tabloları təkcə Azərbaycan incəsənətinin deyil, həm də dünya təsviri sənətinin inciləri sırasında qərarlaşır. Çoxşaxəli yaradıcılığa malik rəssamın əsərləri heyrətamiz xüsusiyyətlərə malikdir. Tahir Salahov həm də Azərbaycan incəsənətinin çoxəsrlik ənənələrini Avropa boyakarlıq məktəbinin nailiyyətləri ilə birləşdirib. Böyük sənətkar haqlı olaraq təsviri incəsənətin canlı klassiki və bütöv bir üslubun banilərindən biri hesab edilir.

Onun mövzu, forma, janr əlvanlığı və estetik kamilliyi ilə seçilən ecazkar rəsmləri ülvi bəşəri dəyərlər və ali məqsədlər naminə humanist fikirləri təlqin edir. Onun əsərlərinə baxdıqda dərin məna, yüksək sənətkarlıq müşahidə etmək mümkündür. Bu sənət nümunələrində insan taleləri timsalında dünyaya, həyata baxışı və fəlsəfi düşüncələri rənglərin ən incə çalarları ilə dolğun ifadəsini tapıb.

Onun şöhrəti dünyanı dolaşır. Rəssamlıqda sərt üslubun yaradıcısı olan rəssam dünya təsviri sənət tarixinə bənzərsiz yaradıcılığı ilə öz adını əbədi həkk edib, desək həqiqəti söyləmiş olariq. 1955-ci ildən yerli və xarici sərgilərin aktiv iştirakçısıdır. Tahir Salahovun 1967-ci ildə işlədiyi Abşeron qadınları əsəri tamaşaçıya bir romanın verə biləcəyi bədii düşündürücü qüdrətə malikdir. Kompozisiyada bir qrup qadının müxtəlif istiqamətlərə yönəlmiş ümumiləşdirilmiş sürətləri yaradılıb. Tamaşaçıya yaxın qoca qadının



uzaqlara dikilmiş baxışları, onun arxasındakı qadının əlini çənəsinə qoyaraq dənizə sarı yönəlmiş nəzərləri və digər psixoloji xüsusiyyətlər elə ilk andaca tamaşaçını özünün sehrli bədii təsiri altına salır. Kimdir bu qadınlar? Onlar niyə bu qədər nigarandırlar? Onlar kimi gözləyirlər? Təbii ki onlar Azərbaycan qadınlarıdır. Onlar 30-cu illərdə gecənin bir aləmində gəlib sorğu-sualsız aparılan Azərbaycan kişilərinin qadınlarıdır. Bunlardan başqa, Bu əsərdə diqqəti hər hansı məqama yönəltmək, qadın obrazlarını fərqləndirmək üçün ağ effektə müraciət etmişdir. Tahir Salahovun rəsmlərində tünd, qara rənglər içərisində bir az ağ rəngdə təsvir heç vaxt təsadüfi olmayıb, tamaşaçıya əsas mətləbi "diktə" etməyə xidmət göstərmişdir. Bundan başqa, sərt realizm üçün qara və ağ rənglər təzad yaratmaq üçün də lazım olmuşdur. Yəni Tahir Salahovun rəsmlərində ağ rəng əslində qara rəngi daha qabarıq göstərməyə xidmət etmişdir. Qırmızı rəng isə rəssamın təqdimatında od, mübarizə, inqilab və azadlıq rəmzidir. Xalq rəssamı Tahir Salahovun sənəti əslində onun yaradıcılığında aparıcı olan üç rəngin harmoniyası üzərində qurulmuşdur: qara, qırmızı və ağ. Doğrudur, Tahir Salahov digər rənglərdən də yerli-yerində istifadə etməkdə məharət göstərir. Lakin əsərlərindəki digər rəng effektləri onun sənəti üçün xarakterik olan qara, qırmızı və ağ rənglərin kölgəsində qalmış və bu əsas rənglərin "əlavəsi", çaları kimi köməkçi rənglər funksiyasını daşımış, ayrı-ayrı əsərlərdə aparıcı rənglərin ifadə etdikləri mənaların daha aydın və cəlbedici şəkildə çatdırılmasına yardımçı olmuşlar.

T.Salahov dünya miqyasında aparıcı portret ustasıdır. Onun yaradıcılığında insanı bəşəriyyətin ən ali varlığı kimi əsas planda görürük. Rəssam ailəsini və dostlarını böyük sevgi təsvir edir. "Aydan", anası Sona xanımın və həyat yoldaşı Varvara Aleksandrovananın silsilə portretləri - sadalanan bu əsərlər mehribanlığı və isti münasibəti təcəssüm etdirir. "Portretlərimin hamısı mənim üçün əzizdir. Çünki onlar mənim doğmalarımın, sevdiyim insanların, əsl sənətkarların portretləridir. Mən o əsərləri sahiblərinə görə çox sevirəm, zəhmətimə görə yox", – deyə etirafı ilə ürəklərə yol tapan T.Salahovun portretləri diqqəti cəlb edir.

Beləliklə, qadın mövzusu həm ictimai fikirdə, həm də bədii mədəniyyətdə hər zaman populyar, aktual olan mövzulardan biridir. Qadın mövzusu estetik və etik mahiyyəti bədii obrazlar vasitəsilə ifadə edən, insana emosional təsir göstərən təsviri sənətdə geniş yayılmışdır.

**Ədəbiyyat**

1. «Ədəbiyyat və incəsənət» qəzeti, 16 noyabr 1968.
2. Tahir Salahov Biblioqrafiya, Bakı – 2013.
3. Yusubov B. Xalq rəssamı Davud Kazımovun yaradıcılığında zəhmətkeş insanların obrazları // "Təsviri və dekorativ-tətbiqi sənət məsələləri", Bakı: Təknur-2014
4. Kerimova R. Azərbaycan Sovet portret boyakarlığı. Bakı, 1964
5. "Vəciyə Səmədova". Sərvət, 2013

**Characteristics of Female Images in Azerbaijani Painting in 50-80s of XX Century**

**Summary**

In the late 50s and early 60s, monumental, laconic paintings, reflecting the realities of everyday life, were created in the framework of the so-called "surrogate style".

In the 1960s and 70s, the connection of art with the lively and rich life of the republic expanded, artists became interested in the leading topics of our time, real innovations, art form, wealth and freshness.

It is impossible to deny the appearance of successful canvases in Azerbaijani painting in the 1960s and 70s, the so-called heyday of Azerbaijani fine art. Over the past years, no matter how traditional the themes of our artists may be, the author's attitude towards them has been different. In this regard, various works on revolutionary historical themes, images of workers, collective farmers and oil workers were created.

**Характеристика женских образов 60-70х годов XX века в азербайджанской живописи**

**Резюме**

В конце 50-х и начале 60-х годов в рамках так называемого «сурогого стиля» были созданы монументальные, лаконичные живописные произведения, отражающие реалии повседневной жизни.

В 1960–70-х годах связь искусства с оживленной и богатой жизнью республики расширилась, художники заинтересовались ведущими темами современности, настоящими инновациями, художественной формой, богатством и свежестью.

Нельзя отрицать появления успешных полотен в Азербайджанской живописи в 1960–70-х годах, так называемый период расцвета азербайджанского изобразительного искусства. За прошедшие годы, какими бы традиционными ни были темы наших художников, авторское отношение к ним было разным. В связи с этим были созданы различные работы на революционно-исторические темы, образы рабочих, колхозниц и нефтяников.

**Rəyçi: dos. S.Sadıqov**

Göndərilib: 20.05.2020 Qəbul edilib: 22.05.2020